# EKOLOJİ TERROR VƏ QLOBAL TƏHLÜKƏSİZLİK

**Nərmin Məmmədova**

*Bakı Slavyan Universiteti*
*narmin.mammadova.1989@inbox.ru*

XXI əsrdə qlobal təhlükəsizliyə təhdidlər sırasında ekoloji terror əsas yer tutur. Ekoloji terror təlükəsi çətin həll oluna bilən mürəkkəb qlobal nəticələrə gətirib çıxarır. Ekoloji terror, xüsusilə də, radioaktiv çirklənmə ilə ətraf mühit yüzlərlə və minlərlə il ərzində yaşayış üçün yararsız ola bilər. Hərbi nöqteyi-nəzərdən ekoloji terrorizm düşmənin zərər vurmaq üçün işğal etdiyi və ya müharibə gedən ərazinin ətraf mühitini qəsdən çirkləndirməyə yönəlmiş siyasətdir. Qlobal iqlim dəyişikliyini, səhralaşma prosesləri və təmiz içməli su qıtlığı da daxil olmaqla bu gün ekologiya bütün dünya ictimaiyyətini narahat edən əsas problemlərdən biridir. İstər ayrı-ayrı fərdlərin, istərsə də dövlətlərin törətdikləri ekoloji terror aktları bütün

dünya ictimaiyyətini narahat edən əsas qlobal məsələlərdən biridir. Bu problemlər BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədlərində (DİM) öz əksini tapmışdır. Bunlardan 6-cı məqsəd su ehtiyatlarından səmərəli istifadə və su təchizatı, kanalizasiya və gigiyena vasitələrinə çıxış zərurəti, 13-cü məqsəd iqlim dəyişikliyi ilə mübarizə, 15-ci məqsəd isə yerüstü ekosistemlərin qorunması və bərpası, meşələrdən səmərəli istifadənin zəruriliyi ilə bağlıdır.

Təhlükəli ekoloji vəziyyət antropogen və təbii təsirlər, o cümlədən fəlakətlər və bədbəxt hadisələr nəticəsində ətraf mühitin məhv edilməsi təhlükəsi və ya mənfi dəyişikliklərlə səciyyələnən, buna görə də insanın və cəmiyyətin həyati mənafelərinə təhlükə yaradan vəziyyətdir. Bu və ya digər səbəbdən ətraf mühitin çirklənməsi qlobal və sosial təhlükə ilə nəticələnə bilər. Nəticədə, regional, daha sonra qlobal fövqəladə ekoloji vəziyyət yaranır və insanların həyat və sağlamlığının, habelə ətraf mühitin qorunması məqsədilə zəruri təcili tədbirlərin həyata keçirilməsinin vacibliyi problem kimi dövlətlərin, beynəlxalq birliyin qarşısında durur.

Ekoloji terrora aşağıdakı aktlar daxildir: zəhərli kimyəvi mübarizə vasitələrinin yayılması; izotopların və digər radioaktiv materialların, miniatür "çirkli" atom bombalarına qədər məqsədyönlü istifadəsi; quşların və balıqların köməyi ilə əhalinin yoluxucu xəstəliklərə yoluxması; epidemiya və epizootiya törətmək məqsədilə xəstəliklər; meşələrin, cəngəlliklərin, tayqaların yandırılması; tərkibində su olan iri bəndləri, istilik və atom elektrik stansiyalarını partlatmağa cəhdlər, neft quyularının irimiqyaslı yandırılması və s.

"Ekoloji təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu"nda *"ekoloji təhlükə - insanın və cəmiyyətin həyati vacib maraqlarına, ətraf mühitə antropogen və təbii təsirlər nəticəsində təhlükə yaradan vəziyyət"* olduğu göstərilir. Bu da öz növbəsində ekoloji fəlakətlə, yəni ətraf mühitdə və insanların həyat şəraitində və fəaliyyətində mənfi dəyişikliklərə gətirib çıxarır.

Müasir dövrdə elm və texnikanın inkişafı ekoloji terror vasitələrinin də sürətlə təkmilləşməsi ilə nəticələnir və ekoloji terrorizm dövlətin və cəmiyyətin inkişafına uyğun olaraq cəmiyyətlə birlikdə inkişaf edir. Bu səbəbdən də, beynəlxalq birlik müasir terror vasitələrinin inkişaf səviyyəsinə uyğun təsir vasitələrinin arsenalına malik olmalıdır. Dünyada baş verən sürətli dəyişikliklər şəraitində, güc dövlətlərin regionlarda geostrateji, iqtisadi maraqlarının toqquşması və təsir dairəsi üstündə ziddiyyətlər hələ də artmaqdadır. Müasir dünyada bir tərəfdən qloballaşma prosesi sürətlə gedir, digər tərəfdən də etnik separatizm və etnoərazi, etnosiyasi münaqişələrin, transmilli mütəşəkkil cinayətkarlığın artması, kütləvi qırğın silahlarının yayılması, təbii ehtiyatların tükənməsi, əhalinin sayının durmadan çoxalması və kütləvi miqrasiya, ətraf mühitin çirklənməsi və s. təhlükəsizliyə təhdidlərin artması müşahidə olunur. İşğal olunmuş ərazilərdə işğalçı tərəfin qəsdən ekoloji terror aktını həyata keçirməsi beynəlxalq prinsiplərə və insanlığa ziddir.

"Ekoloji təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu"nda ekoloji təhlükəsizliyin təmin edilməsi fəaliyyətində təhlükəli ekoloji vəziyyətlərin yaranmasının və inkişafının qarşısının alınması, habelə onların nəticələrinin, o cümlədən gələcəkdə təsir göstərə biləcək nəticələrin aradan qaldırılması üzrə tədbirlər sistemi nəzərdə tutulub.

Müharibə şəraitində həyata keçirilən ekoloji terror aktına bir neçə misal göstərmək problemin mürəkkəbliyini daha aydın diqqətə çatdırmağa imkan verir. Məsələn, Körfəz müharibəsi zamanı İraq işğal altında olan Küveytdə 700-dən çox neft quyusunun yandırdılması və neftin Fars körfəzinə axıdılması XX əsrdə törədilmiş ən faciəli ekoloji terrora nümunədir. Neft quyularının yandırılması nəticəsində onların üzərindəki tüstü dumanı əvvəlcə 800 mil məsafədə yayıldı, 11 milyon barrel xam neft Fars körfəzinə tökülərək doqquz mil uzunluğunda bir sızıntı meydana gətirdi. Səhranın səthində 300-ə yaxın neft gölü yaranaraq torpağı çirkləndirdi. Beynəlxalq yanğınsöndürənlər koalisiyası 6 noyabr 1991-ci ildə son quyu bağlanana qədər aylarla yanğınlarla mübarizə apardı. Yanğının söndürülməsinə baxmayaraq ətraf mühitin çirklənməsi hələ də səhranı bürüməkdədir. Amma bu gün çirklənmiş torpağın 90%-dən çoxu ətraf mühitdə qalır. Bu münaqişədən uzun müddət keçsə də, Küveyt hələ də dünyanın ən ağır ekoloji fəlakətindən zərər çəkir. Sözsüz ki, bu terror aktı insanların, xüsusilə də yeni doğulan uşaqların sağlamlığına ciddi zərər vurur.

XX əsrin sonu-XXI əsrin əvvəllərində həyata keçirilən və regionun, eləcə də beynəlxalq təhlükəsizliyə təhdid olan terror aktı Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarında həyata keçirildi. Azərbaycan regional və qeyri-regional güc dövlətlərinin geosiyasi maraqları dairəsindədir. Ölkənin coğrafiyası bir sıra üstünlüklərə malikdir, eyni zamanda bir sıra təhlükəsizlik problemləri də yaradır. Bu problemlərdən biri Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiasıdır. Otuz ilədək işğal altında olan torpaqlarda azərbaycanlılara qarşı soyqırım və terror aktları həyata keçirilmiş, işğal olunmuş Azərbaycan ərazilərində transsərhəd mütəşəkkil cinayətkar, o cümlədən beynəlxalq terrorçu qruplar tərəfindən qeyri-qanuni fəaliyyət həyata keçirilmişdi. İndiki Ermənistan və işğal olunmuş Azərbaycan Respublikası ərazilərində azərbay-

canlılara məxsus tarixi, mədəni və arxeoloji abidələr kütləvi şəkildə dağıdılmış, yaşayış evləri sökülmüş, ağaclar yandırılmış, təbii sərvətlər talan edilmiş, ətraf mühitə ciddi ziyan vurulmuşdur. Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində flora və fauna kütləvi şəkildə məhv edilmiş, bu ərazilərdə törədilmiş genişmiqyaslı yanğınlar ölkə üçün ən böyük ekoloji problemlərdən birinə çevrilmişdir.

"Ekoloji təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu"nda yazılır: *"Azərbaycan Respublikasının şirin su ehtiyatlarının böyük həcminin qonşu ölkələrdə formalaşması və bu ölkələrin ərazilərində kimyəvi, radioaktiv və digər zərərli maddələrlə intensiv çirklənməyə məruz qalması əhalinin içməli su ilə təmin olunmasında problemlər yaradır. Bundan əlavə, Ermənistan ərazisində seysmik zonada yerləşən və texnoloji baxımdan köhnəlmiş Metsamor Atom Elektrik Stansiyası bütövlükdə region üçün təhlükə mənbəyidir"*.

2021-cil yanvarın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş çıxışında ermənilərin törətdiyi ekoloji terrorun insanlığa zidd olduğunu göstərmişdir: *"Ermənistan 30 il bizim suyumuzu kəsib, 100 min hektar torpağı susuz qoyub. Baxmayaraq ki, həm Sərsəng, həm də Suqovuşan su anbarları o vaxt Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə və onun fəaliyyəti nəticəsində inşa edilmişdir. Ermənistan bizim suyumuzu kəsmişdi"*. Ermənistanın işğalı altında qalmış 260 min 311 hektar meşə sahəsi və buradakı qiymətli ağac növləri kəsilərək müxtəlif məqsədlər üçün istifadə olunmuşdur. Azərbaycan Respublikası XİN-in hesabatında deyilir ki, *"qiymətli ağac növləri - qoz, palıd, Eldar şamı, xurma və xüsusi mühafizə altında olan digər ağaclar odun tədarükü üçün qırılmış və mebel, çəllək və tüfəng qundağı istehsalı üçün Ermənistana aparılmışdır. Yeni aşkar edilmiş mədənlərin istismarı ilə əlaqədar minlərlə hektarlıq ərazidə meşələr qırılmışdır"*.

İkinci Qarabağ Müharibəsi nəticəsində erməni işğalından azad olunmuş torpaqlarda ekoloji fəlakətin fəsadlarının aradan qaldırılması üçün Azərbaycan hökuməti bir sıra vacib tədbirlər həyata keçirir. İlk növbədə bu ərazilər minalardan təmizlənir, ağıllı şəhər və ağıllı kəndlər tikilir, meşələr salınır və s.

Çox təəssüf ki, erməni terroruna məruz qalmış Qarabağın dağlıq bölgəsinin və ətraf rayonların ətraf mühitinin çirklənməsinə, münbit torpaqların deqradasiyasına, təbii resurslardan qeyri-rasional istifadəsinə dünya birliyi səssiz qalır.

Beləliklə, ekoloji problemlər iqtisadi və sosial həyata mənfi təsir göstərir, ictimai sağlamlığa, cəmiyyətin maddi sərvətinə ziyan vurur və dövlətin müvafiq qurumlarının fəaliyyətinə ciddi maneələr yaradır.